# 42 kilometrlik TRIPP 4200 kilometrlik Orta dəhlizin əsas halqasına çevrilir

## Azərbaycanla ABŞ arasında imzalanan xartiyada logistika sahəsində əməkdaşlığın önəmli yer tutmasının bir səbəbi də budur

**Müasir dünyada qlobal ticarətin genişlənməsində nəqliyyat-logistika sistemi önəmli rol oynayır. O üzdən beynəlxalq səviyyədə ticarət yollarına nəzarət qlobal güclər üçün xüsusi əhəmiyyət kəsb edir. Səbəbi də budur ki, sürətli istehsal və sürətli satış müasir dünya iqtisadiyyatının mühüm elementidir.**

Məlum olduğu kimi, dünyada baş verən münaqişələr və geosiyasi qarşıdurmalar səbəbindən ənənəvi ticarət marşrutlarında müəyyən problemlər yaranıb. İndiki halda Orta dəhliz ən münasib alternativdir, üstəlik də təhlükəsizlik və səmərəlilik baxımından əlverişlidir. O da məlumdur ki, Orta dəhlizə nəzarət uğrunda qlobal güclər arasında ciddi rəqabət gedir. Ermənistanla Azərbaycanın Zəngəzur dəhlizinin (TRIPP) açılması barədə razılığa gəlməsinin gecikməsi də bu layihəyə qarşı çıxan güclərin Ermənistana təzyiq göstəməsi ilə bağlı olub.

Nəhayət, ABŞ bu layihənin gerçəkləşməsi üçün Ermənistanı himayə etdi. Bundan sonra ötən ilin avqustanda Vaşinqtonda Amerikanın dəstəyi ilə iki ölkə arasında Zəngəzur dəhlizinin (TRIPP) fəaliyyətə başlaması barədə sənəd imzalandı. Amerika bu layihənin arxasında durmasını hər vəchlə nümayiş etdirir. Təsadüfi deyil ki, "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın 1-ci bölümündə əməkdaşlığın önəmli sahələrdən biri kimi Orta dəhlizdə və "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşutu"nun (TRIPP) əhəmiyyəti vurğulanır. Sənəddə yazılıb: "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Orta dəhlizin inkişafına xüsusi diqqət ayıraraq enerji, nəqliyyat və rəqəmsal infrastruktur sektorlarında, o cümlədən TRIPP və digər layihələrin inkişaf etdirilməsi vasitəsilə iqtisadi artımı və regional bağlantıları təşviq etmək üçün əməkdaşlığı genişləndirmək niyyətindədirlər".




İldə 25 milyon ton yükün Orta dəhlizlə çatdırılması hədəf kimi götürülüb. Bu məqsədə nail olmaq üçün region ölkələri əməkdaşlığı genişləndirməli, digər müvafiq addımlar atmalıdır. Xüsusən marşrutun texniki standartlarının artırılması, sənədləşmə proseslərinin rəqəmsallaşdırılması və vahid tarifin bütün tərəflərin qəbul etməsi vacibdir.

Xəbər verildiyi kimi, fevralın 9-da Daşkənddə Azərbaycan, Özbəkistan və Gürcüstan arasında Orta dəhlizin inkişafı üzrə əməkdaşlığın perspektivləri müzakirə olunub. Həmin gün ADY-nin sədri Rövşən Rüstəmovla "Özbəkistan Dəmir Yolları" SC-nin idarə heyətinin sədri Zufar Narzullayev və "Gürcüstan Dəmir Yolları" SC-nin baş direktoru Laşa Abaşidze arasında görüş keçirilib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər, üç ölkə arasında dəmir yolu sahəsində iş birliyi, o cümlədən Orta dəhlizlə Mərkəzi Asiyadan Avropa istiqamətində yükdaşımaların daha səmərəli təşkili üzrə əməkdaşlığın perspektivləri müzakirə edilib. Tərəflər həmçinin bu dəhlizlə yükdaşımaların daha da artırılması və yeni yüklərin cəlb olunması üçün rəqəmsal həllərin tətbiqinin genişləndirilməsinin vacibliyini vurğulayıblar.

Azərbaycan, Gürcüstan, Özbəkistanla yanaşı, Türkmənistan da Orta dəhliz üzrə əməkdaşlığı genişləndirməyə maraq göstərir. Bu il fevralın 10-da Aşqabadda "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov, Türkmənistanın dəmir yolu nəqliyyatı naziri Mammed Akmammedov, "Özbəkistan Dəmir Yolları" SC-nin idarə heyətinin sədri Zufar Narzullayev və "Gürcüstan Dəmir Yolları" SC-nin baş direktoru Laşa Abaşidze arasında dördtərəfli görüş keçirilib. Görüşdə tərəflər qarşılıqlı maraq kəsb edən məsələləri, o cümlədən dəmir yolu sahəsində, eləcə də regionun əsas tranzit marşrutlarından olan Orta dəhliz üzrə əməkdaşlığın genişləndirilməsi imkanlarını nəzərdən keçiriblər. Bununla yanaşı, Orta dəhlizin rəqabət qabiliyyətinin yüksəldilməsi, bu marşrut üzrə daşımaların həcminin artırılması barədə fikir mübadiləsi aparılıb, əməliyyatların rəqəmsallaşdırılmasının yük nəqlinin daha operativ həyata keçirilməsi baxımından əhəmiyyəti vurğulanıb, ötən ilin avqustunda Türkmənbaşı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Türkmənistanın Dəmir Yolu Nəqliyyatı Nazirliyi və Özbəkistan Respublikasının Nəqliyyat Nazirliyi arasında nəqliyyat-logistika əməkdaşlığı sahəsində Anlaşma Memorandumu"nun əməkdaşlığın genişləndirilməsinə mühüm töhfə verəcəyi qeyd olunub.

Dördtərəfli görüşün yekunu olaraq Orta dəhliz üzrə rəqəmsallaşma və yükdaşımaların inkişafı, dəhlizin diaqnostikası kimi istiqamətləri əhatə edən protokol imzalanıb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

Azərbaycan. - 2026.- 12 fevral (№ 27).- S.9.